40 il əvvəlin bir teatr müzakirəsi

Bu günlərdə Xalq artisti, görkəmli rejissorumuz Mərahim Fərzəlibəyov haqqında kitab üzərində işləyərkən Milli Kitabxanada araşdırma aparırdım, qarşıma maraqlı bir yazı çıxdı. "Azərbaycan" jurnalı 1986-cı il fevral sayında "Teatr və dramaturgiya: problemlər, mülahizələr" mövzusunda diskussiya mətnini dərc edib. O zaman müzakirədə Xalq şairi Bəxtiyar Vahabzadə, Xalq yazıçısı Anar, Xalq artistləri Nəsibə Zeynalova, Həsənağa Turabov, bir də Əməkdar İncəsənət Xadimi Mərahim Fərzəlibəyov iştirak ediblər.

Onlar teatrın problemlərindən açıq-aşkar söz açıblar, dramaturqların həyatla, zamanın çağırışları ilə ayaqlaşa bilmədikləri qeyd olunub. Rejissorların yersiz eksperimentlərə yer verməsi də tənqid edilib. Amma zaman göstərdi ki, bu eksperimentlərə ehtiyac var imiş. Vaqif İbrahimoğlunun "Yuğ" teatrının ilkin cücərtiləri məhz də həmin axtarışlardan boy atdı. Bu diskussiyada bir sıra maraqlı fikirlər də səslənib ki, bugünkü oxucu üçün maraqlı görünə bilər.

40 il əvvəl Bəxtiyar Vahabzadə deyib:

– Niyə bizim teatrlarımız müasir dövrün tələbləri səviyyəsinə qalxa bilmir? Mən bu sualı kinomuz haqqında da verə bilərəm. Nə üçün və hansı səbəbə görə bəzi tamaşalar həyəcansız, sürəksiz, təsirsiz

keçir, tamaşaçılar teatra həvəslə gəlmir? Adil İsgəndərov, Mehdi Məmmədov, Məhərrəm Haşımov, Tofiq Kazımov kimi qüdrətli rejissorlar, Cəfər Cəfərov kimi teatr tənqidçilərini əvəz edə biləcək mütəxəssislərimiz varmı?

Bəxtiyar müəllim rejissorlar haqda nikbin danışıb və Mərahim Fərzəlibəyovun da adını qeyd edib: "Son illərdə Hüseynağa Atakişiyev, Vaqif Həsənov (İbrahimoğlu), Mərahim Fərzəlibəyov, Oruc Qurbanov kimi cavan rejissorlar yetişib, əlbəttə, bu, sevindiricidir. Onların hazırladıqları bir sıra tamaşalar teatr ictimaiyyətində və tamaşaçılarda böyük maraq doğurub".

Mərahim Fərzəlibəyovun duyğu-düşüncələrini olduğu kimi təqdim edirik:

– Hər bir teatrın əsasını, özülünü onun repertuarı təşkil edir; əgər repertuarda əsrin, zamanın böyük həqiqətləri əks olunan pyeslər varsa, o zaman teatr da, bu teatrı hərəkətə gətirən rejissor və aktyor, həmçinin tamaşaçılar da özünü xoşbəxt hiss edəcək. Azərbaycan teatrının belə dövrləri az olmamışdır; Hüseyn Cavidin, Cəfər Cabbarlının, Səməd Vurğunun, Sabit Rəhmanın, keçən onilliklərdə isə İlyas Əfəndiyevin pyesləri təkcə teatrın repertuarını zənginləşdirməyib, həm də bir sıra qüvvətli rejissorların, aktyor nəslinin inkişafına təkan verib.

Lakin onu da qeyd edək ki, ədəbiyyatın digər növləri ilə müqayisədə dramaturji əsər mürəkkəbdir, elə buna görə də çətin yaranır. Dahi Çexov əbəs yerə deməyib: "Dramaturgiya hər bir yazıçı üçün dar ağacıdır".

Təsəvvür edin, hər bir qələm sahibi (şair, nasir, tədqiqatçı, jurnalist və s.) pyes yaza bilər, əsərləri tamaşaya da qoyular, ola bilsin, bir-iki il repertuara yol tapar, amma "dramaturq" adını daşımaq çox çətindir. Bu janrın özünəməxsus poetikası və incəlikləri var. Azərbaycan ədəbiyyatında (eləcə də digər xalqların ədəbiyyatında) onlarla istedadlı şair və yazıçı adı çəkə biləcəyimiz halda, özünün məxsusi teatr məktəbi, dramaturji prinsipləri olan dramaturqların sayı o qədər də çox deyil. C.Cabbarlı və H.Caviddən, S.Vurğun və S.Rəhmandan sonra... bizim teatr pyes sarıdan heç bir qıtlıq çəkməyib, amma sözün əsl mənasında, öz teatr məktəbi olan bircə dramaturqumuzun – İlyas Əfəndiyevin adını çəkə bilərik.

Azərbaycan teatrının yaradıcılıq istiqamətinə gəldikdə isə deməliyəm ki, bizdə romantik-poetik teatr məktəbi mövcud olub. Hüseyn Cavidin əsərləri ilə başlayan bu istiqamət S.Vurğunun mənzum pyesləri ilə özünü doğrultdu. Lakin teatrımız uzun müddət bu ənənəni sanki unutmağa başladı.

Biz bilirik ki, tamaşaçılar çox zaman səhnədə ürəyə toxunan, onların hisslərini ələ alan hər şeyə dərhal reaksiya verirlər. Lakin bir var, hind filmlərindəki və bizim bəzi "gözyaşardıcı" romanlardakı melodramatik ünsürlər, bir də var "Od gəlini", "Vaqif", "Ş Sənan", "Siyavuş" kimi romantik pyeslərdəki təs dici, insanın hissləri ilə bərabər zehninə də işıq sa səhnələr. Romantik-poetik teatrın, milli teatrım yolu budur.

Nəhayət, son illərdə teatrımız həmin ənənə qayıdır. Nəriman Həsənzadənin "Atabəylər", Bə yar Vahabzadənin "Fəryad", Nəbi Xəzrinin "Torp sancılan qılınc" mənzum pyesləri ilə romantik-po teatr yeni mərhələsinə qədəm basır. Müasirlik, icti pafos bu əsərlərin də başlıca məziyyətidir.

Əlbəttə, mən romantik-poetik teatrın mövcu ğunu mütləqləşdirmək və bunu yeganə yaradıcılıq tiqaməti hesab etmək niyyətində deyiləm. Bizim te da dövrün mühüm həqiqətlərini əks etdirən pyes böyük ehtiyac duyulur. Son illərdə Akademik Tea müasir həyatdan bəhs edən çoxlu pyes oynanılıb, kin onlardan ancaq ikisinin (İlyas Əfəndiyevin "I lur sarayda", Anarın "Şəhərin yay günləri" əsər uğurlu olduğunu qeyd edə bilərəm.

Müasir həyatdan, dövrün problemlərindən b edən pyeslərdə, təbii ki, insan mənəviyyatının təs daxili aləmin tədqiqi başlıca yer tutur. Mənəvi alə təsvirini təkcə ailə-məişət planında məhdudlaşdırm insanın ictimai mühitlə əlaqəsini unutmaq olm Gennadi Bokarevin "Poladəridənlər" pyesini yada laq. Bu əsərdə hadisələr zavodda cərəyan edir.

Müəllif, əslində, istehsalat məsələlərini mə vi-əxlaqi problemin şərhi üçün fon seçmişdir. Dra turq, sanki, bu ideyanı təlqin edir: əgər insanın mə viyyatı güclüdürsə, o, ailədə olduğu kimi, zavodda kənar yerdə də hər bir çətinliyə qalib gələcək. I bizə bu cür mənəviyyatı güclü, mübariz müsbət q rəmanlar lazımdır. Teatrımızda oynanılan bir sıra ə lərdə, adətən, müsbət qəhrəmanlar antipodlardan nəzərə çarpırlar. Müsbət qəhrəman təkcə sözdə y işdə, əməldə özünü doğrultmalıdır. Tamaşanın sor da onun üzünü antipoda tutub: "Biz sizə qalib g cəyik" – deməsi hələ heç nə vəd eləmir. Qeyd e ki, şüarçılıq, ritorik hay-haray bizim bir çox mü qəhrəmanların başlıca nöqsanıdır.

Hər bir teatrın taleyi müəyyən mənada dra turqlardan asılıdırsa, onda deməliyəm ki, bizdə van, istedadlı dramaturqlara böyük ehtiyac duyu İstedadı olan, lakin hələlik istedadını pyeslərində şəkildə aşkara çıxara bilməyən cavan dramaturq mız var (Ramiz Fətəliyev, Rövşən Ağayev, Rəh Əlizadə və b.), onların haçansa püxtələşəcəyinə şü eləmirəm. Lakin cavan dramaturqlarımız milli te mızın ənənələrinə üz tutmalıdırlar, xaricdəki hər h ədəbi məktəbdən təqlid onları yolundan sapdıra b Bizim klassik dramaturgiyamız bu mənada cava üçün örnək olmalıdır.

Yeri gəlmişkən, teatrımızın klassik dramatu yaya münasibəti barədə. Klassik əsəri teatrın güz sü hesab edənlərin fikirlərində müəyyən həqiqət Teatrın klassikaya hər bir müraciəti onun həyat müəyyən bir iz buraxır. Lakin hər klassik pyes tea hadisəyə çevrilmir. Bunun üçün qüvvətli rejisso zımdır ki, həmin əsər öz müasir təfsirini, şərhini bilsin. Bu baxımdan, istedadlı rejissorlarımız T Kazımovun və Mehdi Məmmədovun bir çox tam ları diqqətəlayiqdir. Söz ki, rejissor probleminə g çıxdı, onda bir vacib məsələni unutmayaq. Teatrın kişafı müəyyən mənada rejissordan asılıdır.

Mərahim Fərzəlibəyovun mülahizələri bu s lərlə bitmişdi:

– Ötən onilliklərdə bizim teatrda Hidayətzadə, sif Yulduz, Ələsgər Şərifov, Adil İsgəndərov, Mə Məmmədov kimi istedadlı rejissorlar fəaliyyət gö riblər. Onların hər biri teatrda öz üslubunu yarat ğa çalışıb. Ələsgər Şərifov Ostrovski əsərlərini vəffəqiyyətlə tamaşaya qoyurdu, hətta bu tamaş ölkəmizin digər sənət ocaqlarında da böyük rəğb qarşılanırdı. Adil İsgəndərov "Vaqif", "Qaçaq Nə "Qatır Məmməd" kimi monumental pyeslərin qur şu ilə şöhrət qazanmışdı, onun teatrda fəaliyyəti d ründə romantik-poetik teatr ənənələri güclü idi.

Mehdi Məmmədovun quruluşları öz fəlsəfi sə yəsi, Tofiq Kazımovun tamaşarı isə novatorluğu seçilirdi. Onların teatrda yaratdıqları ənənələri ind yaşayır, davam və inkişaf etdirilir".

Yazını hazırl
Kənan HA
yazıçı-publ